Azərbaycan müəllimi.- 2025.- 15 fevral, №6.- S.8.

# "Məktəbdənkənar təhsil: çağırışlar və perspektivlər"

## İlk respublika konfransı keçirilib



Fevralın 12-də "Məktəbdənkənar təhsil: çağırışlar və perspektivlər" mövzusunda ilk respublika konfransı keçirilib.

Konfransın məqsədi məktəbdənkənar təhsilin əhəmiyyətini vurğulamaq, bu sahədə mövcud və beynəlxalq çağırışları müzakirə etmək, onların həlli yollarını araşdırmaq, yerli təcrübə mübadiləsini təmin etmək və gələcək perspektivləri müəyyənləşdirmək olub.

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov çıxışında normativ-hüquqi bazanın təkmilləşdirilməsinin vacibliyini vurğulayıb: "Hazırda istifadə etdiyimiz sənədlərin əksəriyyəti 1990-cı illərin əvvəllərində qəbul olunub.



Son 20-30 ildə ictimai münasibətlərdə və təhsil sahəsində ciddi dəyişikliklər baş verib. Ümumi və ali təhsil sahəsində yeni normativ sənədlər qəbul edilsə də, məktəbdənkənar təhsil sahəsində bu istiqamətdə ciddi dəyişikliklər aparılmayıb. Bu səbəbdən əsas prioritetimiz məhz bu olmalıdır. Artıq xeyli sayda sənəd hazırlanaraq Elm və Təhsil Nazirliyinə və digər aidiyyəti qurumlara təqdim edilib".

Daha sonra çıxış edən MÜTDA-nın Məktəbdənkənar fəaliyyətin təşkili sektorunun müdiri Nilüfər Rəhimova məktəbdənkənar təhsil müəssisələrində işə qəbul qaydaları və çalışanların peşəkar fəaliyyətlərinin qiymətləndirilməsi ilə bağlı hazırlanmış normativ sənədlər barədə məlumat verib.

Elm və təhsil nazirinin müşaviri Rüstəm Ağayev isə məktəblərdə pilot layihə çərçivəsində idman növləri üzrə məktəbdənkənar fəaliyyətlərin təşkili barədə danışıb. O, həmçinin məşqçi-müəllimlərin işə qəbulu ilə bağlı tətbiq ediləcək yenilikləri açıqlayıb.

Konfrans panel müzakirələrlə davam edib, iştirakçıların sualları cavablandırılıb.

**Yetər KƏRİMLİ**

### Məktəbdənkənar təhsil 100 min uşağı əhatə edir

Həll etməli olduğumuz əsas məsələlərdən biri normativ-hüquqi bazanın təkmilləşdirilməsi olub. Agentliyin tabeliyində 145 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir və yüz min uşağı əhatə edir.

Hazırda istifadə etdiyimiz sənədlərin əksəriyyəti 1990-cı illərin əvvəllərində qəbul olunmuş normativ sənədlərdir.

Hamıya aydındır ki, son 20-30 il ərzində ictimai münasibətlərdə, eləcə də təhsil sahəsində ciddi dəyişikliklər baş verib. Ümumtəhsil və ali təhsil sahəsində kifayət qədər yeni normativ sənədlər qəbul olunsa da, məktəbdənkənar təhsil sahəsində bu istiqamətdə ciddi dəyişikliklər aparılmayıb. Düşünürəm ki, birinci prioritetimiz məhz bu olmalıdır. Bu istiqamətdə tərəfimizdən xeyli sayda sənəd hazırlanıb, həm Elm və Təhsil Nazirliyinə, həm də digər aidiyyəti qurumlara təqdim edilib.

### Məktəbdənkənar təhsil bütün uşaqlar üçün əhatəli olmalıdır

Məktəbdənkənar təhsil müəssisələrinə həm işə qəbul qaydaları, həm də onların peşəkar fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı bir neçə normativ sənəd hazırlanıb və aidiyyəti qurumlara təqdim edilib.

Məktəbdənkənar təhsil bütün təhsil pillələrində təşkil edilməli və bütün uşaqlar üçün əlçatan olmalıdır. Bu, yalnız məhdud sayda idman və ya yaradıcılıq mərkəzlərində həyata keçirilməməlidir. Buna görə də əsas hədəfimiz bu təhsil pilləsindən faydalanan uşaqların sayını və əhatə dairəsini artırmaqdır. Bu sahədə vətəndaşlar və ailələr üçün əlçatanlığı artırmaq məqsədilə sistemin elektronlaşdırılması da bu məqsədə çatmaq üçün atılan ilkin addımlardan biri kimi qiymətləndirilə bilər.

### Məktəbdənkənar təhsilə cəlb olunan uşaqların sayı çox azdır

Məktəbdənkənar təhsili yalnız 145 müəssisə ilə məhdudlaşdırmaq istəmirik. Daha əvvəl qeyd etdiyim 145 müəssisədə cəmi 100 min uşaq təhsil alır. Halbuki ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin ümumi sayı 1 milyon 600 mindir.

Məktəbdənkənar təhsildən və bu sahəyə cəlb olunan uşaqlardan danışanda bu rəqəmlər nəzərə alınmalıdır. Nəzərə almalıyıq ki, ölkəmizdə nə qədər uşaq var və onların nə qədərinə bu xidmətləri təqdim edə bilirik. Açıq şəkildə görünür ki, bu, kifayət qədər aşağı göstəricidir.

Əsas məqsəd ümumi təhsil müəssisələrində də bu prosesə cəlb edilən uşaqların sayını artırmaq və əhatə dairəsini genişləndirmək olmalıdır. Yalnız məktəbdənkənar təhsil müəssisələrində deyil, ümumi təhsil müəssisələrində də bu imkanları yaratmaq vacibdir.

### Bu uşaqlar bağçalardan çıxarıla bilər

Qanunvericiliyə dəyişiklik edildikdən sonra bağçalarda hansısa səbəblər üzündən və müəyyən müddət ərzində davamiyyəti aşağı olan uşaqların kənarlaşdırılması nəzərdə tutula bilər.

Bunun üçün normativ hüquqi baza təkmilləşdirilməlidir. Bu istiqamətdə işlər aparılır. Məsələ ilə bağlı təkliflər müzakirə mərhələsindədir.

Məktəbəqədər təhsil müəssisələrində davamiyyətin aşağı olması hallarına rast gəlinir. Lakin bu, kütləvi xarakter daşımır. Uşaqların maksimum 5-10 faizinin müxtəlif səbəblərdən - bəzi hallarda bu səbəblər üzrlü də deyil - davamiyyətlərində problemlər olur. Bugünkü qanunvericilik belə uşaqların müəssisələrdən kənarlaşdırılmasına imkan vermir.